Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 2023-cü il 28 iyul tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

**“Vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədi ilə bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının 2016-cı il 7 sentyabr tarixli 1617050000011400 nömrəli Qərarında dəyişikliklər**

1. Həmin Qərarla təsdiq edilmiş “Səyyar vergi yoxlamasının keçirilməsi Qaydaları” üzrə:

1.1. aşağıdakı məzmunda 3.0.3-1-ci yarımbənd əlavə edilsin:

“3.0.3-1. Xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələri;”.

1.2. aşağıdakı məzmunda 5.0.14-2-ci yarımbənd əlavə edilsin:

“5.0.14-2. Səyyar vergi yoxlamaları zamanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 iyul tarixli 265 nömrəli Qərarı ilə təsdiq edilmiş “Riskli vergi ödəyicisinin, o cümlədən riskli əməliyyatların Meyarları”na cavab verən, eləcə də əmtəəsiz və (və ya) riskli əməliyyatlar aparması aşkar edilən vergi ödəyicisinin Vergi Məcəlləsinin 13.2.82-ci maddəsinə uyğun olaraq riskli vergi ödəyicisi olması barədə qərar çıxarılması üçün tədbirlər görmək;”.

1.3. aşağıdakı məzmunda 6.10-cu bənd əlavə edilsin:

“6.10. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda xarici dövlətlərin (ərazilərin) səlahiyyətli orqanının nümayəndəsi Azərbaycanda və ya Azərbaycan Respublikasının vergi orqanının səlahiyyətli nümayəndəsi həmin xarici dövlətdə (ərazidə) fəaliyyət göstərən vergi ödəyicisində keçirilən səyyar vergi yoxlamalarında iştirak edə bilər.”.

1.4. aşağıdakı məzmunda 8.18.4-1-ci yarımbənd əlavə edilsin:

“8.18.4-1. Vergi ödəyicisində aparılan səyyar vergi yoxlaması ilə əlaqədar olaraq müvafiq məlumatın və ya sənədlərin əldə edilməsi məqsədilə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində vergi orqanının nümayəndəsinin xarici dövlətin ərazisində vergi yoxlamasında iştirak etməsilə bağlı xarici ölkənin səlahiyyətli orqanına müraciət edildikdə - xarici dövlətdə aparılan yoxlama yekunlaşanadək;”.

1.5. aşağıdakı məzmunda 25-1-ci yarımbənd əlavə edilsin:

**“25-1. Xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələrinin Azərbaycan Respublikasının ərazisində səyyar vergi yoxlamasında iştirakı**

25-1.1. Vergi Məcəlləsinin 38.9-cu maddəsi ilə müəyyən edilmiş hallarda xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının əsaslandırılmış müraciəti əsasında həmin müraciətdə göstərilən məsələ ilə bağlı xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələrinin səyyar vergi yoxlamasında iştirakı məqsədilə vergi orqanının rəhbəri (müavini) tərəfindən "Xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələrinin Azərbaycan Respublikasının ərazisində keçirilən səyyar vergi yoxlamasında iştirakı haqqında Qərar" (Əlavə 22-1) qəbul edilir. Qərarda xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələrinin iştirakı üçün əsaslar, xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının və nümayəndələrinin adları göstərilir.

25-1.2. Azərbaycan Respublikasının ərazisində keçirilən səyyar vergi yoxlamasında iştirak edən xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələrinin aşağıdakı hüquqları vardır:

25-1.2.1. Xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının müraciətində göstərilən məsələ ilə əlaqədar zəruri olan kağız və elektron daşıyıcılarda olan məlumatları və sənədləri, habelə mühasibat uçotu elektron formatda aparıldığı halda vergi ödəyicisinin özünün, filiallarının və digər struktur bölmələrinin elektron daşıyıcılarındakı məlumatlarının verilməsini, həmin məlumatlara çıxış imkanının yaradılmasını tələb etmək, həmçinin alınmış sənədlər və məlumatlar ilə tanış olmaq;

25-1.2.2. Yoxlamanın keçirilməsi zamanı xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının müraciətində göstərilən məsələ ilə bağlı vergi ödəyicilərindən və ya onların vəzifəli şəxslərindən izahatlar, arayışlar, məlumatlar almaq;

25-1.2.3. Sənədlərin götürülməsi zərurəti yarandıqda, sənədlərin Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada vergi ödəyicisi tərəfindən təsdiq edilmiş surətlərini götürmək;

25-1.3. Azərbaycan Respublikasının ərazisində keçirilən səyyar vergi yoxlamasında iştirak edən xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələri öz hüquqlarını səyyar vergi yoxlamasını keçirən yoxlayıcılar vasitəsilə həyata keçirirlər.

25-1.4. Azərbaycan Respublikasının ərazisində keçirilən səyyar vergi yoxlamasında iştirak edən xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələrinin aşağıdakı vəzifələri vardır:

25-1.4.1. Azərbaycan Respublikasının Konstitusiyasının, Azərbaycan Respublikası ilə müraciət edən xarici dövlət (ərazi) arasında bağlanmış və ya hər iki dövlətin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, Vergi Məcəlləsinin, digər əlaqəli normativ hüquqi aktların, o cümlədən bu Qaydaların tələblərinə riayət etmək;

25-1.4.2. Azərbaycan Respublikası ilə müraciət edən xarici dövlət (ərazi) arasında bağlanmış və ya hər iki dövlətin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin və Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq əldə edilmiş hər hansı məlumatların (sənədlərin) məxfiliyini qorumaq;

25-1.4.3. Əldə edilmiş məlumatlardan (sənədlərdən) yalnız Azərbaycan Respublikası ilə müraciət edən xarici dövlət (ərazi) arasında bağlanmış və ya hər iki dövlətin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş məqsədlər üçün istifadə etmək;

25-1.4.4. Vergi ödəyicilərinə, onların nümayəndələrinə və vergi münasibətlərinin digər iştirakçılarına diqqət və nəzakətlə yanaşmaq.

25-1.5. Xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələrinin sənədlərə (məlumatlara) baxışı Vergi Məcəlləsinin 30-cu maddəsinin "Kommersiya sirri haqqında" Azərbaycan Respublikasının Qanununun və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununun tələbləri nəzərə alınaraq həyata keçirilir.

25-1.6. Xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələrinin Azərbaycan Respublikasının ərazisində keçirilən səyyar vergi yoxlamasında iştirakı ilə bağlı məlumatlar səyyar vergi yoxlaması aktında qeyd edilir.";

1.6. 26.1.27-3-cü yarımbəndə "təşkilatlara" sözündən sonra ", habelə siyahısı Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara" sözləri əlavə edilsin.

1.7. 27.1.7-2-ci yarımbəndə "(xidmətlər)" sözündən sonra ", habelə lotereya biletlərinin, idman mərc oyunları biletlərinin və elektron mərc oyunu biletlərinin satışı, habelə lotereya biletlərinin agent qaydasında satışı ilə bağlı xidmətlərin göstərilməsi" sözləri əlavə edilsin.

1.8. 27.1.21-ci yarımbənddə "hesablara şəhadətnamə-dublikatın alınması" sözləri "hesablar üzrə Vergi Məcəlləsinin 16.1.11-ci maddəsinin tələblərinin yerinə yetirilməsi" sözləri ilə əvəz edilsin.

1.9. 30.1.13-cü yarımbənddə "eyni vaxtda" sözləri "Vergi Məcəlləsinin 175.1.3-cü maddəsinin tələblərinə uyğun" sözləri ilə əvəz edilsin.

1.10. aşağıdakı məzmunda 31.1.11-2-ci yarımbənd əlavə edilsin:

"31.1.11-2. Vergi Məcəlləsinin 191.5-ci maddəsinə uyğun olaraq aksizli mallara tətbiq edilən aksiz dərəcələrinin "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hissəsinin icbari tibbi sığorta fonduna ödənilməsi vəziyyəti;".

1.11. aşağıdakı məzmunda 35.1.8-2-ci yarımbənd əlavə edilsin:

"35.1.8-2. Yerin təkindən çıxarılmış faydalı qazıntılar barədə Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinə təqdim edilmiş hesabatların mədən vergisi bəyannamələri ilə uyğunluğu;".

1.12. 36.1.9-2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"36.1.9-2. vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) görülən işlərdən və göstərilən xidmətlərdən başqa, xidmətlərin göstərilməsini və işlərin görülməsini həyata keçirən şəxslər tərəfindən əhaliyə xidmətlə (işlə) yanaşı, hüquqi şəxslərə və vergi ödəyicisi kimi vergi orqanında uçotda olan fiziki şəxslərə xidmətlərin göstərilməsi və işlərin görülməsi həyata keçirilirsə, rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatların (qeyri-rezident hüquqi şəxslər və sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident fiziki şəxslərə hesab-faktura (invoys) əsasında göstərilən xidmətlərin və görülən işlərin dəyəri də daxil olmaqla) həcminin Vergi Məcəlləsinin 218.6.2-ci maddəsində qeyd olunan həddən artıq olub-olmaması;".

1.13. 46-2.1.5-ci yarımbəndə "sosial" sözündən sonra "sığorta" sözü əlavə edilsin.

1.14. 49.3.10-cu yarımbəndə "müşahidəçilərin dəvət edilməsi" sözlərindən sonra ", xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələrinin iştirakı" sözləri əlavə edilsin.

1.15. 22-1 nömrəli əlavə təsdiq edilsin:

"Səyyar vergi yoxlamasının
keçirilməsi Qaydaları"na
22-1 nömrəli əlavə

**Xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələrinin Azərbaycan Respublikasının ərazisində keçirilən səyyar vergi yoxlamasında iştirakı haqqında**

**Qərar №** ________

________________ (şəhər, rayon) ________________ (tarix)

______________________________________________
(vergi orqanının adı)

________ tarixli _____ №-li qərarı ilə ______________________________
(yoxlayıcının vəzifəsi, rütbəsi, soyadı, adı, atasının adı)

______________________________________________tərəfindən

______________________________________________
(vergi ödəyicisi olan hüquqi şəxsin tam adı və ya fərdi sahibkarın və ya sığortaedənin, yaxud sığortalının soyadı, adı, atasının adı, VÖEN-i)

üzrə aparılan səyyar vergi yoxlamasında Azərbaycan Respublikasının və ______________

______________________________________________
(xarici dövlətin (ərazinin) adı)

tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həmin xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələrinin iştirakı zərurəti yaranmışdır. Azərbaycan Respublikasının Vergi

Məcəlləsinin 38.9-cu maddəsini və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri rəhbər tutaraq

**Qərara alıram:**

_______________________________________________tarixli _____№-li müraciətində
(xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının adı)

(AVİS qeydiyyat №-si: ____________________) göstərilən məsələ ilə əlaqədar olaraq yuxarıda

qeyd olunan yoxlamada ____________________________________________
(xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının adı)

______________________________________________________________
(səlahiyyətli nümayəndəsinin vezifəsi, soyadı, adı, atasının adı)

iştirakına icazə verilir.

______________________________________________________rəisi (rəis müavini)
(vergi orqanının adı)

______________________ ________ ________________________
(rütbəsi) (imza) (soyadı, adı, atasının adı)

**M.Y.**

Qərarla tanış oldum:

______________________________________ ________ ____________
(hüquqi şəxsin rəhbərinin və ya fərdi sahibkarın və ya sığortaedənin, yaxud sığortalının (onların səlahiyyətli nümayəndələrinin) soyadı, adı, atasının adı) (imza) (tarix)

1.16. 24 nömrəli əlavəyə aşağıdakı məzmunda 1.9.8-ci yarımbənd əlavə edilsin:

“1.9.6-1. Xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələrinin iştirakı:________ tarixli __________________________ nömrəli Xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələrinin iştirakı haqqında Qərara (əlavə olunur) əsasən xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələri iştirak etdi.

Qeyd: ...............................................”.

2. Həmin Qərarla təsdiq edilmiş “Kameral vergi yoxlamalarının aparılmasına dair Qaydalar” üzrə:

2.1. 1.3.1-ci yarımbəndin ikinci cümləsində “30” rəqəmləri “90” rəqəmləri ilə əvəz edilsin;

2.2. 6-cı hissənin adında “elektron” sözündən sonra “və AVİS-dən kənar” sözləri əlavə edilsin;

2.3. 8-ci hissə üzrə:

2.3.1. 8.1.6.34-cü yarımbənddə "Vergi ödəyicisinə xidmət edən kredit təşkilatlarına və ya bank əməliyyatları aparan şəxslərə yazılı bildiriş göndərməklə əldə edilmiş bank hesabı" sözləri "Kredit təşkilatlarına və ya bank əməliyyatları aparan şəxslərə yazılı bildiriş göndərməklə həmin kredit təşkilatları və ya bank əməliyyatları aparan şəxslərin xidmət etdiyi vergi ödəyicisinə (şəxsə) dair əldə edilmiş eyniləşdirmə məlumatı, bank hesabları" sözləri ilə əvəz edilsin;

2.3.2. 8.2.7.41-ci yarımbənddə "əldə bank hesabı və əməliyyatları barədə" sözləri "eyniləşdirmə məlumatı, bank hesabları və əməliyyatları barədə məlumatın, həmçinin bu məlumatı təsdiq edən sənədlərin" sözləri ilə əvəz edilsin;

2.3.3. 8.9.3.10-cu və 8.9.4.2-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"8.9.3.10. vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) görülən işlərdən və göstərilən xidmətlərdən başqa, işlərin görülməsini və xidmətlərin göstərilməsini həyata keçirən şəxslər (Vergi Məcəlləsinin 218.4.1-ci və 220.10-cu maddələrində nəzərdə tutulan şəxslər tərəfindən işlərin görülməsi və xidmətlərin göstərilməsi istisna olmaqla);";

"8.9.4.2. Vergi Məcəlləsinin 218.5.10-cu maddəsinin müddəalarından asılı olmayaraq, vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) göstərilən xidmətlərdən və görülən işlərdən başqa, xidmətlərin göstərilməsini və işlərin görülməsini həyata keçirən şəxslər tərəfindən əhaliyə xidmətlə (işlə) yanaşı, hüquqi şəxslərə və vergi ödəyicisi kimi vergi orqanında uçotda olan fiziki şəxslərə xidmətlərin göstərilməsi və işlərin görülməsi həyata keçirilirsə, rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatların (qeyri-rezident hüquqi şəxslər və sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident fiziki şəxslərə hesab-faktura (invoys) əsasında göstərilən xidmətlərin və görülən işlərin dəyəri də daxil olmaqla) həcmi xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə ümumi əməliyyatların (satışdankənar gəlirlər istisna olmaqla) həcminin 30 faizindən çox olmadıqda.";

2.3.4. aşağıdakı məzmunda 8.9.4-1-ci və 8.9.4-2-ci yarımbəndlər əlavə edilsin:

"8.9.4-1. Bu Qaydaların 8.9.4.1-ci və 8.9.4.2-ci yarımbəndlərinin müddəaları malların təqdim edilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən ibarət qarışıq əməliyyatlar aparılan hallara da tətbiq edilir.";

"8.9.4-2. Bu Qaydaların 8.9.4.1-ci və 8.9.4.2-ci yarımbəndlərində göstərilən şərtlər ödənilmədikdə, sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ həmin hesabat rübündən sonrakı ayın 1-dən ləğv edilir.";

2.3.5. 8.11.3.6-cı yarımbənddə "128-ci" sözləri "13.2.16.14-1-ci" sözləri ilə əvəz edilsin və həmin bənddən "(alınmış borclar üzrə qaytarılan borcun əsas məbləği (faizlər nəzərə

alınmadan) və rezident banklar tərəfindən açılan müxbir hesablara ödənişlər istisna olmaqla)" sözləri çıxarılsın;

2.3.6. 8.11.3.7-ci yarımbənddə "2" rəqəmi "5" rəqəmi ilə əvəz edilsin;

2.3.7. 8.11.3.9.2-ci yarımbənddə "125.1.9-cu" sözləri "125-1-ci" sözləri ilə əvəz edilsin və həmin yarımbəndə "ölkələrdə" (hər üç halda) sözlərindən sonra "və ya ərazilərdə" sözləri əlavə edilsin;

2.3.8. 8.20.1-ci yarımbəndin birinci cümləsində "istehsalından alınan gəlirlər" sözləri "istehsalından (o cümlədən sənaye üsudlu ilə) alınan gəlirlər, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fiziki şəxslərin bu fəaliyyət üzrə satışdankənar gəlirləri, habelə kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar fiziki şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına verilən subsidiyalar" sözləri ilə əvəz edilsin.